**Azərbaycan Tibb Universiteti**

Uşaq və yeniyetmələr gigiyenasında
Dövlət Sanitariya Nəzarəti

Fənni üzrə
İŞÇİ TƏDRİS PROQRAMI
(SİLLABUS)

**"TƏSDİQ EDİRƏM**

**"Uşaq- yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı"** kafedrasının müdiri:

dos. Ş.M.Balayeva

İmza _______________

**FƏNNİN KODU:** İPF–B58

**FƏNNİN NÖVÜ:** məcburi

**FƏNNİN TƏDRİS SEMESTRİ:** XII

**FƏNNİN KREDİTİ:** 4 kredit

**FƏNNİN TƏDRİS FORMASI:** əyani

**FƏNNİN TƏDRİS DİLİ:** azərbaycan, rus

**FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR:**
t.ü.f.d., dos. Ş.M.Balayeva
t.ü.f.d., dos. N.Q.Süleymanzadə
t.ü.f.d., dos. H.Ə.Həsənova
t.ü.f.d., dos. Z.Q.İsmayılova
baş müəllim İ.İ.Mustafayeva

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏSİ:** **012 595-30-14**

**E.mail:** **department_cahoh@amu.edu.az**

**PREREKVİZİTLƏR:**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn: Uşaq müəssisələrinin gigiyenası.

**KOREKVİZİTLƏR:**

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.

**KURSUN TƏSVİRİ:**

Bu fənn uşaq və yeniyetmə müəssisələri üzərində xəbərdaredici və cari sanitariya nəzarətini, müəssisələrdə sanitariya gigiyenik və sanitar-əksepidemik tədbirlərin aparılması üçün dövlər sanitariya nəzarətinin həyata keçirilməsini, sanitariya sağlamlaşdırıcı tədbirlərin kompleks planınnın hazırlanmasını, qüvvədə olan sanitar qaydalardan, standartlardan, beynəlxalq aktlar və qanunverici sənədlərdən istifadə etməklə uşaq müəssisələrinin hər tərəfli müayinə üsullarının mənimsənilməsini öyrənməklə məşğul olur.

**KURSUN MƏQSƏDİ:**

Fənnin əsas məqsədi: uşaq və yeniyetmə əhalisinin tibbi təminatının təşkili-ni, uşaq və yeniyetmə müəssisələrinin üzərində cari və xəbərdaredici sanitariya nəzarətin təşkilini öyrənmək, uşaq və yeniyetmələrin sağlamlığının qorunması sahəsində beynəlxalq aktlar və qanunverici sənədlə tanış olmaqdır.

**KURSUN NƏTİCƏLƏRİ:**

Fənnin mənimsənilməsi nəticəsində tələbələr uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətini qiymətləndirməyi, uşaq və yeniyetmə müəssisələri üzərində cari və xəbərdaredici sanitariya nəzarətinin təşkilini və aparılmasını, qüvvədə olan sanitariya qaydalardan, standartlardan, beynəlxalq aktlar və qanunverici sənədlərdən istifadə etməyi bacarmalıdırlar.

**FƏNN ÜZRƏ MÜHAZİRƏ MƏŞĞƏLƏ MÖVZULARI:**

| № | *Mövzuların adı* | Saat |
|---|---|---|
| 1 | Uşaq əhalisi arasında yay sağlamlaşdırıcı işin təşkili və keçirilməsi<br>**Predmet:** *Yay sağlamlaşdırıcı müəssisələr üzərində xəbərdaredici və cari sanitariya nəzarətinin təşkili. Məktəbəqədər yaşlı uşaqlar üçün yay sağlamlaşdırıcı müəssisələr. Məktəbyaşlı uşaqlar üçün yay sağlamlaşdırıcı müəssisələr. Sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi. Gün rejiminin təşkili və xüsusiyyətləri.* | 2 |
| 2 | Uşaq və yeniyetmələrin gigiyenik tərbiyəsi və təlimi. Sağlam həyat tərzinin formalaşmasında onun rolu<br>**Predmet:** *Gigiyenik təlim və tərbiyənin məqsədi, vəzifələri, əsas prinsipləri. Gigiyenik tərbiyənin həyata keçirilmə üsulları və formaları. Həyat tərzi və onun sağlamlığa təsiri. Gigiyenik tərbiyənin sağlam həyat tərzinin formalaşmasında rolu. Uşaq və yeniyetmə müəssisələrində uşaqların gigiyenik tərbiyəsinin təşkili* | 2 |
| 3 | Uşaq və yenityetmə əhalisinin tibbi təminatı<br>**Predmet:** *Tibbi xidmətin təşkilində Uşaq müalicə-profilaktika müəssisələrin rolu.* Sağlamlığa təsir edən *sosial – gigiyenik amillər. İcbari tibbi müayinələrin təşkili və mərhələləri. ÜTM- də profilaktik və sağlamlaşdırıcı tədbirlərin təşkili və aparılmasının əsas prinsipləri. Tibbi müayinələr zamanı istifadə olunan üsullar və onların həcmi.* | 2 |

| | | |
|---|---|---|
| 4 | Uşaq və yenityetmə müəssisələri üzərində xəbərdaredici və cari sanitariya nəzarətinin təşkili və keçirilmə xüsusiyyətləri. Gigiyena вə epidemiologiya mərkəzində uşaq və yeniyetmə gigiyena bölməsi həkiminin işinin təşkili, hüquq və vəzifələri<br>***Predmet:*** *Uşaq və yeniyetmə əhalisinin sağlamlığı üzərində sanitariya - epidemioloji xidmət. Uşaq və yeniyetmələr gigiyenası üzrə həkimin işi, vəzifələri. Sanitariya nəzarətinin formaları, planlı və plansız müayinələr. Xəbərdaredici və Cari sanitariya nəzarəti təşkili, keçirilmə xüsusiyyətləri. Cari sanitariya nəzarətinin formaları .* | 2 |
| 5 | Pandemiya zamanı uşaq müəssisələrinin işinin təşkilinə gigiyenik-əksepidemioloji tələblər. Uşaq və yeniyetmələrin sağlamlığının qorunması sahəsində beynəlxalq aktlar və qanunverici sənədlər.<br>***Predmet:*** *İctimai sağlamlıq və sosial tədbirləri həyata keçirmiş, Ölkələrin ictimai səhiyyə müdaxilələrini fərqli kontekstlərdə tənzimləmələrinə kömək etmək üçün bir sıra tətbiqetmə hazırlanması. Sağlamlığının qorunması sahəsində yerli qanunverici sənədlər. Beynəlxalq aktlar və qanunverici sənədlər.* | 2 |

**Cəmi: 10 saat**

# TƏCRÜBƏ MƏŞĞƏLƏLƏRİNİN PLANI

| № | *Mövzuların adı* | Saat |
|---|---|---|
| 1 | GEM-də qanunverici sənədlərlə, aktlarla və protokol nümunələri, dislokasiya ilə tanışlıq. (GEM)<br>***Predmet:*** *GEM-də qanunverici sənədlərlə, aktlarla və protokol nümunələri, dislokasiya ilə tanışlıq.* | 6 |
| 2 | Ümumtəhsil müəssisəsinin kompleks müayinəsi və aktın tərtibi. (Laborator - cihaz üsulun tətbiqi ilə sərbəst iş)<br>***Predmet:*** Ümumtəhsil məktəblərində laborator cihazlarla mikroiqlimin təyini və qiymətləndirilməsi. Aktın yazılması. | 6 |
| 3 | Məktəbəqədər uşaq müəssisəsinin kompleks müayinəsi və aktın tərtibi. (Laborator - cihaz üsulun tətbiqi ilə sərbəst iş)<br>***Predmet:*** *Məktəbəqədər uşaq müəssisəsinin kompleks müayinəsi, laborator nümunələrin götürülməsi və aktın tərtibi.* | 6 |
| 4 | Uşaq müəssisələri üzrə cari və xəbərdaredici sanitar nəzarətin aparılması üsulları. (Kafedra)<br>***Predmet:*** *Xəbərdaredici* və cari sanitar nəzarətin aparılması *üsullarının təhlili və qiymətləndirilməsi.* | 5 |
| 5 | Yay sağlamlaşdırıcı müəssisələrinin üzərində xəbərdaredici sanitariya nəzarətinin aparılması üsulları. (Kafedra)<br>***Predmet:*** *Yay sağlamlaşdırıcı müəssisələrinin üzərində xəbərdaredici sanitariya nəzarəti, layihənin təhlili və qiymətləndirilməsi.* | 5 |
| 6 | Rayonun uşaq və yeniyetmələrin sağlamlığı haqqında məlumatları və sağlamlaşdırıcı tədbirlər planı ilə tanışlıq (GEM).<br>***Predmet:*** *Bölmədə rayon üzrə uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətini əks etdirən sənədlərlə tanışlıq və sağalamlaşdırıcı tədbirlərin hazırlanması* | 6 |

| | | |
|---|---|---|
| 7 | İnternat məktəbinin kompleks müayinəsi və aktın tərtibi. (Laborator - cihaz üsulun tətbiqi ilə sərbəst iş)<br>**Predmet:** *İnternat məktəblərinin kompleks müayinəsi,* laborator cihazlarla müayinənin təşkili. Aktın yazılması. | 6 |
| 8 | Peşə-texniki məktəbinin kompleks müayinəsi və aktın tərtibi. (Laborator - cihaz üsulun tətbiqi ilə sərbəst iş)<br>**Predmet:** *Peşə-texniki məktəbinin kompleks müayinəsi,yeniyetmələrin sağlamlıq vəziyyəti haqqında məlumatların təhlili və aktın tərtibi.* | 6 |
| 9 | GEM- də uşaq və yeniyetmələr gigiyenası bölməsi üzrə həkimin işinin təşkili və təhlili. (Kafedra)<br>**Predmet:** *Uşaq və yeniyetmələr gigiyenası bölməsi üzrə həkimin illik iş planının təhlili və qiymətləndirilməsi.* | 4 |

**Cəmi: 50 saat**

Fənnin bütün mövzuları üzrə nümunəvi testlər elektron variantda hazırlanır və Universitetinin rəsmi www. amu.edu.az saytında yerləşdirilir.

**QİYMƏTLƏNDİRMƏ:**

Fənn üzrə kredit üçün lazımi 100 balın toplaqnması aşağıdakı kimi olacaq:
50 bal-imtahana qədər
O cümlədən:
10 bal- dərsə davamiyyət
10 bal- sərbəst iş
10 bal - bacarıqlar
20 bal- seminar dərslərindən nəzəri biliklərdən toplanacaq ballardır.
50 bal- imtahanda toplanılacaq.

Imtahan test üsulu ilə keçiriləcəkdir, tələbələrə 50 test verilir. Hər bir test bir balla qiymətləndirilir. Səhv cavablanan test düzgün cavablardan yığılan ballardan silir.

**QEYD:**

Imtahanda minimum 17 bal toplanmasa, imtaha qədər yığılan ballar imtahan balı ilə toplanılmayacaq. Imtahanda 17 və yuxarı bal, imtahana qədər toplanan ballarla cəmlənir və yekun nəticə aşağıdakı kimi qiymətləndirilir:

A - “Əla” -91-100
B - “Çox yaxşı” -81-90
C - “Yaxşı” -71-80
D - “Kafi” -61-70
E - “Qənaətbəxş” -51-60
F - “Qeyri kafi” -51 baldan aşağı

**SƏRBƏST İŞ:**

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi bir balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi 1-2 səhifə (şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğu görə plaqiat yol verilməzdir.

**SƏRBƏST İŞLƏRİN MÖVZULARI VƏ TƏHVİL VERİLMƏSİNİN SON TARİXİ**

| №-si | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Uşaq və yeniyetmələr gigiyenası üzrə sanitar həkimin vəzifələri. | 4-cü həftə |
| 2 | Dövlət sanitariya nəzarətinin əsas vəzifələri. | 5-ci həftə |
| 3 | Məktəbəqədər müəssisələrində tibbi müşahidənin prinsipiləri. | 6-cı həftə |
| 4 | Uşaq və yeniyetmələr gigiyenası üzrə sanitar həkiminin xəbərdaredici sanitariya nəzarəti istiqamətində fəaliyyəti. | 7-ci həftə |
| 5 | Uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkiminin cari sanitariya nəzarəti, müəssisələrin müayinələri zamanı aparılan tədqiqatlar. | 8-ci həftə |
| 6 | Mütəşəkkil uşaq və yeniyetmə müəssisələrində dərin tibbi müayinənin (despanserizasiya) təşkili. | 9-cu həftə |
| 7 | Məktəbəqədər uşaq müəssisəsi və məktəb həkiminin vəzifələri | 10-cu həftə |
| 8 | Gigiyenik tərbiyə və təlim. Sağlam həyat tərzinin formalaşmasında onun rolu. | 11-ci həftə |
| 9 | Uşaq əhalisi arasında yay sağlamlaşdırıcı işin təşkili вə keçirilməsi | 12-ci həftə |
| 10 | Uşaq müəssisələrinini müayinə növləri və aktın tərtib qaydası | 13-cü həftə |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır.

Sərbəst işlərin nəticələri jurnalda qeyd olunur.

**KURS İŞİ:**

Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulur.

**Hazırladı:** **t.ü.f.d., dos. Z.Q.İsmayılova**

**Metodik təminat**


1. Əliyev V.Ə. “Uşaq və yeniyetmələr gigiyenası”. Dərslik. Bakı - 1995.
2. Gürzəliyev S.A., Məmmədova Z.B., Süleymanzadə N.Q., Həsənova S.Ə.,Balayeva Ş.M., İsmayılova Z.Q. “Uşaq və yeniyetmələr gigiyenası”. Təcrübə məşğələsi, Bakı – 2010.
3. Məmmədov A.M. “Uşaq və yeniyetmələr gigiyenası”. I – II hissə tədris vəsaiti, Bakı - 1986.
4. Сердюковская Г.Н., Сухарев А.Г. “Гигиена детей и подростков” руководство для санитарных врачей. М. - 1986
5. Кардашенко В.М. “Гигиена детей и подростков”. Практический занятия. М. - 1983.
6. Кардашенко В.Н. “Гигиена детей и подростков”. М. - 1988.
7. Кучма В.Р. «Гигиена детей и подростков», М. – 2001
8. Кучма В.Р. «Медико-профилактические мероприятия организации деятельности общеобразовательных организаций в период распространения новой коронавирусной инфекции (COVİD–19)» М.,2020